# Beyin hərfləri «görə bilər»

Kor insanların əksəriyyətində görmə qabiliyyətinin itməsi ya gözdəki, ya da görmə sinirindəki problemlə əlaqədardır. Yəni, beyin qaydasında olur və hansısa siqnalları qəbul edə bilər.

AZƏRTAC "Наука и жизнь" saytına istinadla xəbər verir ki, neyrobioloqların fikrincə, elektrod implantların köməyilə görmə nahiyəsini bilavasitə stimullaşdırmaq olar və kor adam da nəyisə görə bilər.

Eksperimentdə iştirak edən kor adamlar davamlı elektrod siqnalların köməyilə beyində hiss etdikləri fiquru sensor ekranda barmaqları ilə çəkə biliblər. Yəni davamlı elektrod siqnalları beyində hər hansı fiquru "görməyə" kömək edib.

Təcrübədə sadə simvollardan, C, W və U kimi hərflərdən istifadə edilsə də, alimlərin fikrincə, beyinə daha mürəkkəb təsvirləri ötürmək mümkündür.

# Çobanyastığı çayı



Çobanyastığı bitkisinin yuxusuzluğa çox yaxşı təsiri var, sakitləşdirici və antiseptikdir. Dəmləməsi spazmı aradan qaldırır, bağırsaq qazlarına da müsbət təsir edir(süd-lə birgə içmək daha yaxşıdı).

Xüsusilə qastrit və mədə xorası zamanı çox faydalı olan çobanyastığı xəstəliyin sağalmasını tezləşdirir. Çobanyastığının çayı, yağı tibbdə çox istifadə edilir. Onun çayı dərini təmizləmək və təravətləndirmək üçün faydalıdır.

Bu çayla gözə kompres etmək gözdəki şişkinliyi aradan qaldırar, saçları yumaq isə ona parlaqlıq verər.

Çobanyastığının yağından ağrıların müalicəsində istifadə olunur. Əsasən uşaqların qarın nahiyəsindəki sancı, ağrı zamanı çobanyastığı yağı isidilir və əllə qarın nahiyəsi yüngül masaj edilir. Bunu ağrı olmayan zaman da etmək olar, faydası var, amma ziyanı yoxdur.

Çobanyastığını qaynadıb buxarı ilə tənəffüs etmək soyuqdəymə və burun ciblərinin iltihabı (sinusit) zamanı xeyirlidir.

Allergiyası olanlar üçün tövsiyə edilmir.

# Asteroidin orbiti Günəşdən uzaqlaşır

Yaponiya Aerokosmik Məkanın Tədqiqi Agentliyinin (JAXA) yaydığı məlumata görə Ryuqu asteroidi uzaq gələcəkdə Günəş ilə Merkuri arasındakı orbitə yerləşə bilər. Bu mövqe onun Yer ilə Mars arasındakı indiki orbitindən fərqlənir.

AZƏRTAC xəbər verir ki, JAXA bu barədə "Hayabusa-2" kosmik zondundan alınmış fotoları təhlil etdikdən sonra məlumat yayıb.

Agentliyin məlumatına əsasən, Ryuqu asteroidinin qum və qayadan ibarət səthi 600 dərəcə Selsidən yüksək temperatur nəticəsində qızarıb. Bu temperatur asteroidin indiki orbitində Günəşə maksimum yaxınlaşma zamanı belə mümkün deyil.

Bildirilir ki, Ryuqu asteroidindəki yeni kraterdə olan qum və qaya növü yüksək temperaturun təzyiqinə məruz qalmadığına görə mavi rəngdədir. Bu, kosmik cismin qismən yaxın keçmişdə Günəşdən aralandığını deməyə əsas verir.

Tədqiqatın nəticəsi təsdiq edir ki, 300 min ildən 8 milyon ilədək olan dövrdə Ryuqu asteroidi Günəşdən indiki orbitinin üçdə birindən beşdə birinədək olan məsafədə yerləşib.

# Elan

Məlikli Bələdiyyəsində vakant olan bələdiyyə qulluqçuları vəzifələrinə işçilər tələb olunur.

İşlə təmin olunmaq istəyənlər bələdiyyə şurasına müraciət edə bilərlər.

**Əlaqə telefonu:** 050 336 05 10

# Bilirsinizmi?

● İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir.

● @ işarəsinin məlum olan ilk istifadəsinə 4 may 1536-cı ilə Francesco Lapi adlı florensiyalg bir tacirin yazdığı bir məktubda rast gəlinmişdir.

● Çirkli qar təmiz qardan tez əriyir.

● Siqaret çəkənlər çəkməyənlərə nisbətən yorğunluqdan daha çox şikayətlənir, eşitmə problemi ilə 70% daha çox üzləşirlər.

● Tokioda 1990-cı ildə müşahidə edilən ən böyük avtomobil tıxacının uzunluğu 135 km idi.

● Kosmosda astronovtlar 5 sm daha uzun olurlar.

● Döş qəfəsindən çıxarılan insan ürəyi qısa müddət döyünə bilir. Çünki onun özünün xüsusi elektrik sistemi var və ətraf mühitdən elektrik ala bilir.

● Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.

● İnsanın saçı üç kilo ağırlıq qaldıra biləcək güdcədir.

● Kosovo himninin sözləri yoxdur, yalnız müsiqidən ibarətdir.

# İTMİŞDİR

Şəki Aqrolizinq Nümayəndəliyi Qəbələ Rayon Bölməsinin balansında olan 2006-cı buraxılışlı, şassi nömrəli 185610, **dövlət qeydiyyat nişanlı 10 E 502 olan kombaynın** TH 011845 saylı **texniki pasportu** itdiyi üçün etibarsız hesab olunur.

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Ərazi idarəsi tərəfindən 22 yanvar 2019-cu il tarixdə **Kürd Bələdiyyəsinə** verilmiş RX seriyalı 1426776 nömrəli (reyestr nömrəsi 406012000952, qeydiyyat nömrəsi 1919000428) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 22 yanvar 2019-cu il tarixli A seriyalı 336183 nömrəli (reyestr nömrəsi 406012000952) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Ərazi idarəsi tərəfindən 22 yanvar 2019-cu il tarixdə **Kürd Bələdiyyəsinə** verilmiş RX seriyalı 1426774 nömrəli (reyestr nömrəsi 406012000954, qeydiyyat nömrəsi 1919000425) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 22 yanvar 2019-cu il tarixli A seriyalı 336185 nömrəli (reyestr nömrəsi 406012000954) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 nömrəli qərarı ilə Mıxlıqovaq kənd sakini **Ağakişiyev Əvəz Ağakişi oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 203 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **Mürsəlov Kənan Cumşüd oğluna** verilmiş JN seriyalı 676 F nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının DƏDRX-nin Qəbələ Rayon Ərazi idarəsi tərəfindən 10 fevral 2009-cu il tarixdə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Əliyev Raqif Seyid oğluna və Əliyeva Balaxanım Bəyalı qızına** verilmiş MH seriyalı 0012905 nömrəli (reyestr nömrəsi 406013006334, qeydiyyat nömrəsi 1909000351) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 5 fevral 2009-cu il tarixli AA seriyalı 003970 nömrəli (reyestr nömrəsi 406013006334, inventer nömrəsi 406-46\1388) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Corlu kənd sakini **Məmmədov Cümşüd İbad oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 186 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının DƏDRX-nin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 10 fevral 2009-cu il tarixdə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Əliyev Tariyel Raqif oğluna** verilmiş MH seriyalı 0012901 nömrəli (reyestr nömrəsi 406013006338, qeydiyyat nömrəsi 1909000350) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 05 fevral 2009-cu il tarixli AA seriyalı 003966 nömrəli (reyestr nömrəsi 406013006338, inventar nömrəsi 406-46/1398) **torpaq sahəsinin planı və ölcüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Şəfiyeva Adilə Nuh qızına** verilmiş JN seriyalı 465 G nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı başlanmışdır

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1160